## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# S Ə R Ə N C A M

**№ 135 s**

**Bakı şəhəri** **14 fevral 2019-cu il**

**“Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin 2019-cu il üçün Xərclər Smetası”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamə”nin 4.11-ci bəndinə əsasən:

1. “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin 2019-cu il üçün Xərclər Smetası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsində göstərilən Xərclər Smetası üzrə vəsaitin müəyyən olunmuş qaydada ödənilməsini təmin etsin.

3. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının maliyyə və iqtisadiyyat məsələləri şöbəsinə həvalə edilsin.

4. Bu Sərəncam  2019-cu il yanvarın 1-dən tətbiq edilir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 14 fevral tarixli 135 s nömrəli Sərəncamı ilə **təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinin 2019-cu il üçün**

**XƏRCLƏR SMETASI**

| **Sıra №-si** | **Xərclərin iqtisadı təsnifatı** | **Məbləğ (manat)** |
|---|---|---|
| 1. | Ştatda olan işçilərin əməkhaqqı | 137700 |
| 2. | Ştatdankənar işçilərin əməkhaqqı | 231708 |
| 3. | Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri, o cümlədən: | 174644 |
| 3.1. | təmsilçilik xərcləri | 128744 |
| 4. | Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 122412 |
| 5. | Sair xərclər, o cümlədən: | 985536 |
| 5.1. | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının mətbu nəşrlərinin təsis edilməsi, xüsusi bülletenlərin buraxılması, konfransların, simpoziumların, forumların təşkili, üzvlərin bu tədbirlərdə iştirakı ilə əlaqədar xidməti ezamiyyə, işin təşkili ilə əlaqədar xidmət haqlarının, ekspertlərin qonorar xərclərinin ödənilməsi və fəaliyyəti ilə bağlı digər xərclər | 230050 |
| | **Cəmi:** | 1652000 |